# FATIMƏ (S.Ə) HACƏRDƏN ÜSTÜNDÜR

<"xml encoding="UTF-8?>

FATIMƏ (S.Ə) HACƏRDƏN ÜSTÜNDÜR

Ən üstün və dəyərli məscid Məscidül-həramdır. Kəbə isə Allah hərəmi və bütün məscidlərin qibləsidir. Həzrət İbrahimin (ə) xanımı Hacər Kəbənin yanında torpağa tapşırılıb və Allah-Taala da müsəlmanlara əmr edib ki, Hacərin qəbrinin ətrafında dolansınlar. Amma həzrət Fatimənin (s.ə) məqam və dərəcəsi hətta şərəf evində yatan Hacərdən belə üstündür. Çünki o dörd behişt qadınlarından biridir. Həmin dörd qadınlar isə bunlardır: Məryəm, Asiya, Xədicə, Fatimə. Bundan əlavə əhli-beytin iftixarlarının varisi, Adəmdən (ə) başlayaraq İbrahimə (ə) çatan, İsa və Musanı (ə) da ehtiva edib Məhəmmədə (s) tamamlanan bir nəslin davamçısıdır Həzrət Fatimə (s.ə).